Yeni Təfəkkür



# "Şəhid mundiri"

**İstedadlı qələm sahibi, publisist, dəyərli alim-ziyalı, gözəl vətəndaş Pərixanım Mikayılqızının Aprel döyüşçülərinin həyatından bəhs etdiyi kitabı belə adlanır...**

Artıq bir neçə müddətdir ki, "Şəhid mundiri" adlı kitab əlimdədir, stolumun üstündədir. Son vaxtlar şəhidlərdən və onların haqqında yazılmış kitablardan çox bəhs etdiyim üçün özümü toparlamaq istədim. Ona görə kitabın müəllifi, istedadlı qələmdaşım, dəyərli alimimiz, əvəzsiz ziyalımız Pərixanım Mikayılqızından üzrxahlıq istəyirəm. Çünki eyni mövzudan yazmağın ağırlığını, məsuliyyət yükünü bu sahədən baş çıxaranlar və jurnalistikada külüg çalanlar bilərlər.

Mənim üçün çox müqəddəs və əvəzsiz olan vətənimə, onun yolunda şəhid olan oğul və qızlarımızın əziz xatirəsinə həsr olunmuş bu kitab haqqında fikirlərimi cəmləmək, ağ vərəq üzərinə həkk etmək istəyirəm. Mənim üçün insan Allahın yaratdıqları içərisində ən seçilmişləridir. İnsanlara Yaradan tərəfindən bəxş edilən şüur, təfəkkür, bir sıra hiss və duyğuları onu digər canlılardan fərqləndirməklə yanaşı, daha da dəyərli edir. İnsanlara bəxş edilən ən müqəddəs duyğulardan biri də onun Allahına, dininə, vətəninə, millətinə, haqqa və ədalətə olan sonsuz sevgisidir. O sevgi ki, insanları bu dəyərləri uğrunda ölməkdən belə çəkindirmir. Məhz bu hisslər və dəyərlərə olan münasibətlə Allah insanları sınağa çəkir. Onun sadiqliyini, onun Yaradana olan şükrünü imtahan edir. O insanlar xoşbəxtdirlər ki, onlar Allahın imtahanından layiqincə çıxır və Ona nə qədər sadiq bir bəndə olduğunu sübut edirlər. Öz ölümü bahasına belə olsa... Əslində, bu amallar uğrunda ölmək ölümlərin ən şərəflisidir və bu ölüm yaşamaqdan min qat faydalı, insanlara haqq-ədalət uğrunda mübarizənin nə qədər şərəfli olduğunu anladır. Dağlıq Qarabağ münaqişəsi başlayandan bu varlı, zəngin və qiymətli torpaq uğrunda canından keçən minlərlə şəhidimiz var. Onların hər birinin həyatını qələmə almaq, azərbaycanlılara tanıtmaq hər bir qələm əhlinin borcudur. Həmkarım Pərixanım Mikayılqızı da Vətən, torpaq və onun uğrunda şəhid olmuş azərbaycanlı balalarına borcunu vermək üçün belə şərəfli, ağır və məsuliyyətli yükü öz üzərinə götürərkən məhz bu amalları göz önünə gətirib. Qeyd edim ki, çəkdiyi zəhmət öz bəhrəsini verib, nəfis tərtibatda, oxunaqlı bir əsər alınıb.

Povest əsasən 1-5 aprel 2016-cı ildə aparılmış uğurlu döyüşlərin qəhrəmanlarına həsr edilib, şəhid övladlarımızın döyüş və həyat yolu qələmə alınıb.

Öncə qeyd edim ki, Allah və din yolunda, Vətən və milləti uğrunda canı, malı, namus və şərəfi ilə ölənlərə ŞƏHİD deyilir. "Şəhid" sözü ərəb sözü olub, yüksək amal, məslək, əqidə, din və ya inanc uğrunda ölən, canını fəda edən adam deməkdir. Şəhid olma hadisəsinə "şəhadət" deyilir. Bu barədə müqəddəs Qurani-Kərimdə Allah Təala buyurur: "Allah yolunda öldürülənlərə ölülər deməyin, onlar ölü deyil, diridirlər, lakin siz (o yüksək həyatın) fərqində deyilsiniz" (Bəqərə surəsi, 154).







Azərbaycan müstəqil bir ölkə olaraq tarixin ağır sınaqlarından çıxıb və hələ də böyük sınaqla üz-üzədir. Müxtəlif dövrlərdə müstəmləkəçiliyə, işğala, soyqırımına və digər faciəli, qanlı hadisələrə məruz qalıb. Çoxlu itkimiz olub, torpaqlarımız işğal altına alınıb. Sözsüz ki, bütün hallarda xalqımız öz qəhrəmanlığını, öz vətəninə və xalqına sədaqətini sübut edib. Buna bariz nümunə kimi Şəhidlər Xiyabanında uyuyan yüzlərlə qeyrətli oğul və qızımızın qəhrəmanlığını göstərmək olar. Hələ itkin düşmüş neçə-neçə insanımızı demirəm... Millətimiz nə qədər zəngin və xoşbəxtdir ki, bu Vətənin uğrunda yüzlərlə insan öz canından keçib və hələ də keçmək arzusundadır.

Bu gün ölkəmiz müstəqildir, azaddır və firavandır. Sözsüz ki, bu azadlıq və firavanlıq onların qəhrəmanlığı bahasına başa gəlib. Bu gün Azərbaycan dünyanın inkişaf edən ölkəsidirsə və bu inkişaf göstəriciləri ilə dünyanın diqqətini cəlb edə bilirsə, təbii ki, bütün bunlar qəhrəman oğul və qızlarımızın canlarını qurban verərək qazandığımız müstəqilliyimizin və bu gün ölkəmizdə həyata keçirilən düzgün, məqsədyönlü siyasətin nəticəsidir.

Bir yazar olaraq Pərixanım Mikayılqızı da çalışıb ki, qələmə aldığı bu kitabda Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi və suverenliyi uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi ehtiramla yad edilsin, bu həqiqətləri yetişən və yetişməkdə olan nəsillərə əmanət kimi ötürsün. Bunlar bizim sahib çıxacağımız ən dəyərlilərimizdir. Onlar bizim qürurumuz, fəxrimiz, güvənc yerimiz, hamımızın – bütün millətimizin başucalığıdır. Müəllif də bu məqsədlə həmin əsəri yazıb və öz məqsədinə yüksək səviyyədə nail olub.

İllərdir müəllifi tanıyıram. Bilirəm ki, Pərixanım Mikayılqızı oxucuları ilə görüşməkdən və işıq üzü görən "Şəhid mundiri" adlı kitabının məhz vətənpərvərlik mövzusunda, şəhidlərimizə həsr olunmasından çox böyük qürur duyur və bunu fəxarət hesab edir. "Şəhid mundiri" kitabında Qarabağ müharibəsinin əsas aparıcı hissəsi olan Aprel döyüşlərində şücaət göstərmiş və qəhrəmancasına şəhid olmuş oğullarımız barədə yazılıb, eləcə də qısa döyüşdə həlak olmuş oğullarımızın sayı, onların dövlət tərəfindən mükafatlandırılması və s. barədə də söz açılıb.

Povestdə Vətən, torpaq uğrunda Qarabağa gedib döyüşmək, işğal altında qalan ərazilərimizin erməni murdarlarından geri alınması üçün qəlbi bu hisslərlə döyünən gənclərin həyatından, döyüş yollarından bəhs edilir. Cavidi atası Sərxanın ölümündən sonra təkbaşına böyüdən Əsmərin əzab-əziyyəti, məşəqqətli həyatı gözlərimiz önündə canlandırılır, Cavidin orta məktəb illərindən sonra Azərbaycan Dövlət Texniki Universitetində tələbəçiliyindən, magistr təhsilindən maraqla söz açılır, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovla, eləcə də digər qəhrəmanlarımızla öyünməsi, atası kimi bir gün cəbhəyə getməsi, şəhidlərimizin qisasının murdarlarından alınması qabardılır. Müəllif hətta Cavidin Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşmək arzusunu da oxuculara çatdırır.

Cavidin sevgisi Vətən sevgisi ilə vəhdət təşkil edir. Təbriz kişinin qızını hədsiz dərəcədə sevən Cavid döyüş bölgəsindən zəng edərkən anasından tez-tez ətrafları, qonşuları barədə soruşur, anası da ona səbrlə, sakitcə cavab verirdi. Mən hələlik bu qədər söz açdım kitabdan, Cavidin maraqlı həyatından. Bütövlükdə isə "Şəhid mundiri" kitabını əldə edib oxuyun. Çox böyük fəxarət hissi duyuram ki, millətimizin şəhidləri, xüsusən də Aprel döyüşlərinin iştirakçıları barədə belə bir kitabı yazmaq dostumuza nəsib olub.

Şəhidlərimizi tanımaq, öz milli kimliyimizi dərk etmək, onları ehtiramla yad etmək, ictimaiyyətə daha geniş tanıtmaq kimi şərəfli bir işin son məhsulu olan bu kitabın ərsəyə gəlməsini elə də asan iş hesab etməyin. Ümid edirəm ki, şəhidlərimizdən bəhs edən bu kitabı oxumaq sizlərdə də fəxr hissi oyadacaq. Ona da sevinirəm və fəxr edirəm ki, Pərixanım Mikayılqızı bu möhtəşəm və oxunaqlı kitabı II Qarabağ savaşının – Zəfərimizin ildönümü ərəfəsində oxucuların ixtiyarına verib. Və artıq torpaqlarımız Ali Baş Komandan, "Dəmir Yumruğ"un sahibi İlham Əliyev və mübariz, döyüşkən ordumuz tərəfindən işğaldan azad olunub və arzu edirəm ki, bundan sonra yazılacaq kitablarımız Qarabağımızın azadlığı, orada zəfər çalan qəhrəmanlarımıza həsr olunsun.

**Daşdəmir Əjdəroğlu**